# AZƏRBAYCAN RESPUBLİKASI

# VERGİLƏR NAZİRLİYİ

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR İDARƏSİ

***Beynəlxalq təcrübələr və innovasiyalar şöbəsi***

# MÖHÜR VERGİSİ

**2014**

## *Möhür rüsumu nədir?*

Möhür rüsumu vergi növü hesab edilir. Bu növ rüsumlar fiziki və hüquqi şəxslərdən əsasən sənədləşmə proseslərinə görə alınır. Bura qiymətli kağızlar, əmlak alqı-satqısı zamanı sənədləşmə, evliliklə bağlı sənədləşmə və s. daxildir. Möhür rüsumu tətbiq edilən ölkələrdə onun ödənildiyini təsdiq edən qəbz verildikdən sonra sənədləşmə prosesinə başlanılır. Bəzi ölkələrdə möhür rüsumu müəyyən əqdi rəsmiləşdirmək üçün müəyyən edilən məbləğ, bəzi ölkələrdə isə mal və ya xidmətin qiymətinə əlavə vergi kimi qəbul edilir. Hər bir ölkənin möhür rüsumunu tənzimləyən qanunvericilik bazası mövcuddur. Möhür rüsumunun toplanması qaydalarına müvafiq dövlət orqanı nəzarət edir və riayət etməyənlərə sanksiyalar tətbiq olunur. Möhür rüsumu ya sabit məbləğ və ya əməliyyat həcmindən asılı olaraq müəyyən olunur. Bu növ vergi ilk dəfə İspaniyada tətbiq edilib. Sonradan 1620-ci ildə Niderlandda, 1651-ci ildə Fransada, 1657-ci ildə Danimarkada, 1682-ci ildə İngiltərədə tətbiq edilməyə başlanılıb.

### Danimarka

İlk dəfə 1657-ci ildə İsveçlə müharibəni maliyyələşdirmək üçün tətbiq edilməyə başlanılıb. Lakin, 2000-ci ildən bir çox möhür rüsumları ləğv edilib. Yalnız siğortaya görə bu növ vergi tətbiq edilir.

### İrlandiya

İrlandiya Respublikasında möhür rüsumu kredit kartı, debit kartı, ATM kartları, çeklər, mülkiyyət alqı-satqısı zamanı və məhkəmə sənədlərinə tətbiq edilir. Möhür rüsumu bu ölkədə əsasən proqressiv vergi dərəcəsinə əsaslanır. Belə ki, əgər şəxs bahalı ev alırsa, daha çox möhür rüsumu ödəyəcəyini nəzərdə tutmalıdır.

**Avstraliya**

Avstraliya Federal Hökuməti ümumilikdə bu növ vergini tətbiq etmir. Bununla belə, bəzi ştatlarda müxtəlif növ yazılı sənədlərə(alətlərə) və əməliyyatlara görə bu cür vergi alınır. Möhür rüsumu vergisinin dərəcəsi sənədləşməni və aparılan əməliyyatların mahiyyətinə uyğun olaraq dəyişə bilir. Bəzi yerlərdə bu möhür rüsumu deyil "əməliyyat rüsumu" kimi işlənilir.

**Honk-Konq**

Qanunvericiliyə əsasən möhür rüsumu bəzi hüquqi sənədlərə tətbiq edilməklə 4 qrupa bölünür:

Qrup 1: Daşınmaz əmlakın satışı və icarəsi ilə bağlı əməliyyatlar

Qrup 2: Səhmlərin satışı ilə bağlı əməliyyatlar

Qrup 3: Bütün adsız qiymətli kağızlarla bağlı əməliyyatlar

Qrup 4: Yuxarıda göstərilənlərin surəti və ya əsli ilə bağlı sənədlər.

**Filippin**

Sənəd möhürü rüsumu aksiz vergisidir və sənədlərə, kredit müqavilələrinə, satışlara, öhdəliklərin və hüquqların ötürülməsinə və digər biznes alətlərinə tətbiq edilir. Vergi dərəcəsi sənəd və əməliyyatın növündən asılı olaraq dəyişir. Sənəd möhürü rüsumu Filippin xaricində tamamlanan əməliyyatlara və Fillippin mənbələrindən və ya ölkə daxilində yerləşən əmlakdan yaranan öhdəlik və hüquqlarla bağlı xaricdə imzalanan sənədlərə tətbiq edilir.

**Malayziya**

Möhür rüsumu əməliyyatlara deyil, alətlərə tətbiq edilir. Əməliyyat transfer aləti yaradılmadan effektiv olarsa, rüsum ödənilmir. Möhürlənməmiş və ya lazımi səviyyədə möhürlənməmiş alət məhkəmədə sübut kimi qəbul edilə bilməz. 2009-cu ilin yanvarın 1-dən qeydiyyat orqanında qeydiyyatdan keçmiş şəxslər möhür rüsumunu elektron qaydada ödəyə bilərlər. Rüsum dərəcəsi alətin növündən və əməliyyatların dərəcəsindən asılı olaraq dəyişir. 0.5%-lik möhür rüsumu xidmətlərin/kreditlərin dəyərinə tətbiq edilir.

**Avstriya**

Möhür rüsumları Avstriyada müəyyən hüquqi əməliyyatlardan yığılan vergi növüdür. Bu əməliyyatlara icarə müqavilələri, zamin bəyannamələri, ipoteka müqavilələri və s. aiddir. Möhür rüsumu aktına edilən dəyişikliyə əsasən 2011-ci ilin yanvarın 1-dən kredit və borc razılaşmaları möhür rüsumuna aid deyil.

**İsveçrə Konfederasiyası**

İsveçrə Konfederasiyasının qanunvericiliyində möhür vergisi Federal Möhür Vergisi Aktı ilə tənzimlənir. İsveçrədə möhür vergisinin 2 növü vardır və möhür vergisi yalnız qiymətli kağızların satışı və buraxılışı zamanı tutulur.

- Federal qiymətli kağızların özgəninkiləşdirmə/satış möhür vergisi
- Federal qiymətli kağızların buraxılış möhür vergisi

*Qiymətli kağızların özgəninkiləşdirmə möhür vergisi* vergiyə cəlb olunan qiymətli kağızların, istiqrazların satışına görə ödənilir. Qiymətli kağızların dilerləri möhür vergisinin ödəyiciləridirlər. Federal Möhür Vergisi Aktına əsasən qiymətli kağızlarla əməliyyat satatusuna malik olan dilerlər federal vergi orqanlarında qeydiyyatdan keçməlidirlər.

Qiymətli kağızların dilerlərinə banklar, bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən maliyyə şirkətləri, sonuncu balans hesabatına əsasən vergiyə cəlb olunan qiymətli kağızlarının dəyəri 10 milyon CHF-dən çox olan səhmli korporasiyalar, məhdud məsuliyyətli müəssisələr, korporativ korporasiyalar aiddir.

Vergiyə cəlb olunan qiymətli kağızlar aşağıdakılardır:

- Səhmlər
- İstiqrazlar
- Kollektiv investisiya layihələrindəki iştirak payları

Qiymətli kağızların özgəninkiləşdirmə möhür vergisi dərəcəsi daxili qiymətli kağızlar üçün 0.15%, xarici qiymətli kağızların satışı zamanı 0.3%-dir.

*Qiymətli kağızların buraxılışı və mövcud qiymətli kağızların nominal dəyərinin artırılması üzrə möhürü vergisi*

Cədvəldə qeyd olunan qiymətli kağızların buraxılışı və nominal dəyərinin artımı bir qayda olaraq qiymətli kağızların buraxılış möhürü vergisinə 1% dərəcə ilə cəlb olunur. Qiymətli kağızların alıcıları həmin vergilərin ödəyiciləridirlər.

| | |
|---|---|
| İsveçrə korporasiyalarının səhmləri | 1% |
| İsveçrə özəl məhdud müəssisələrin payları | 1% |
| İsveçrə korporativ cəmiyyətlərinin səhmləri | 1% |